# Ümumtəhsil orta məktəblərində təbiəti mühafizə məsələlərinin tədrisi zamanı qarşıya çıxan problemlər və onların həlli yolları

**Dilbər Murad qızı Qasımova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** dilberqasimova@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. M.İ. Verdiyeva,
p.ü.f.d., dos. D.M. Ələsgərov

**Açar sözlər:** coğrafi təlim, təbiətə mühafizəkarcasına yanaşma, coğrafiya dərsliklərinin problemi

**Ключевые слова:** географическое учение, консервативное отношение к природе, проблемы учебников по географии

**Key words:** geographical teaching, conservative attitude to the nature, problems of text-books on geography

Müasir dövrdə təbii-ekoloji, qlobal problemlərin çoxalması ilə əlaqədar olaraq, təbiəti mühafizə məsələlərinin öyrənilməsi öz aktuallığını qoruyub saxlayır. Xüsusilə, bu məsələlərin məktəb coğrafiyasında tədris edilməsi şagirdlərin təbiətə mühafizəkarcasına yanaşma ruhunda tərbiyə edilməsi üçün olduqca vacibdir. Təbiəti mühafizə məsələlərinin ümumtəhsil orta məktəb dərsliklərində verilməsini təhlil etmək və bu sahədə şagirdlərin hansı bilik və bacarıqlar əldə edəcəklərini dəqiqləşdirmək vacibdir. Çünki gələcəyin şəxsiyyəti təbiətə mühafizəkarcasında yanaşmaq ruhunda tərbiyə olunmalıdır. 8 iyun 1999-cu ildə Azərbaycan Prezidenti "Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi. Sənəddə deyilir: "Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsindən, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınmasından, bioloji müxtəlifliyin qorunub saxlanılmasından və təbiətdən istifadənin səmərəli təşkilindən ibarətdir [1].

Bununla yanaşı, Qanunda ölkə vətəndaşlarının hüquq və vəzifələri də müəyyən edilmişdir. Bu səbəbdən də coğrafi bilik və bacarıqların mənimsənilməsi zamanı diyarşünaslıq prinsipləri ilə yanaşı ətraf mühitin mühafizəsi Qanunundan irəli gələn prinsiplərə də əməl edilməsi günümüzün aktual məsələlərindəndir. Deyilənləri coğrafiya dərslikləri üzrə nəzərdən keçirmək vacibdir.

6-cı sinif coğrafiya dərsliyində "Əhali artımı və məskunlaşması" mövzusunun motivasiya hissəsində şagirdlərə verilmiş sual birbaşa təbiətin mühafizəsinə xidmət edir: -Əhali sayının belə sürətlə artmasının səbəbləri nə ola bilər? [2, s. 33] Sual şagirdləri düşündürmək cəhətdən olduqca əlverişlidir. Lakin şagirdlər əhali artımının səbəblərini bilməklə yanaşı, bu halda baş verəcək nəticələri də düşünməlidirlər. Bunun üçün müəllim əhali sayının sürətlə artmasının hansı mənfi və müsbət nəticələr yarada biləcəyini müzakirəyə verməlidir. Ermənistandan deportasiya edilmiş və Qarabağın işğalı zamanı məcburi köçkünlərin məskunlaşdıqları ərazilərdə yaranmış problemləri müzakirə etmək diyarşünaslıq baxımından olduqca əlverişlidir.

"İstehsal və istehlak" mövzusunun motivasiya hissəsində şagirdlərə: "Avtomobillərin sayının artmasını nə ilə izah edə bilərsiz?" sualı da təbiəti mühafizə baxımından müzakirə aparmaq üçün səmərəlidir [2, s. 41]. Xüsusilə də Bakı, Sumqayıt və Gəncə şəhərləri kimi əhalinin çox məskunlaşdığı ərazilərdə ekologiyanın pozulmasının nəticələrini araşdırmaq vacibdir.

7-ci sinif coğrafiya dərsliyində “Yeraltı sərvətlər” mövzusu şirin suların dünyada tükənməsi problemlərini təlim zamanı müzakirə etməyə imkan verir. Eyni zamanda mövzunun “fəaliyyət” hissəsində şagirdlərə verilmiş “Təbii sərvətlər necə əldə olunur?” [3, s. 58]. sualı müzakirə ediləcək vacib məsələdir və şagirdlər təbii ehtiyatların çıxarılması zamanı təbiətə vurulmuş zərəri qiymətləndirmək imkanına malikdirlər. Müəllim belə hallarda çalışmalıdır ki, şagirdlər bir vətəndaş olaraq təbiətə vurulmuş zərərin aradan qaldırılması, təbiətin qismən bərpa edilməsi üçün təkliflərlə çıxış etsin.

“Çaylarımızın ekoloji vəziyyəti” mövzusunda çayların çirklənməsindən, həmçinin çirklənmiş suların təmizləyici qurğular vasitəsilə təmizlənməsindən bəhs olunur [3, s. 96]. Əsas məsələ kimi çayların çirklənməsinin qarşısının alınması geniş müzakirəyə verilə bilər. Şagirdləri bu problemin qarşısının alınması üçün düşünməyə sövq etmək lazımdır.

“Canlı aləmin müxtəlifliyi” mövzusunda sadəcə canlı aləm haqqında məlumat verilib [3, s. 100]. Lakin təbiətin ən ali canlıları olan insanların bu canlı təbiətə olan təsirindən bəhs olunmayıb. Lakin bacarıqlı fənn müəllimi şagirdləri quruda və suda yaşayan canlılar aləminə insanların hansı yollarla mənfi təsir etdiyini araşdırmağa, öyrənməyə və onların qarşısının alınması yollarını fikirləşməyə sövq etməlidir.

“Torpaqların mühafizəsi” mövzusunda torpaqların əhəmiyyətindən, həmçinin yararsız hala salınmasından bəhs olunur [3, s. 107]. Şagirdlər torpaqların həm təbii amillərin, həm də insan təsərrüfatının təsiri nəticəsində korlandığını, yararsız hala salındığını öyrənirlər. Dərsin diyarşünaslıq prinsiplərinə uyğun olaraq təşkili daha vacibdir. Bunun üçün şagirdlər ilə ekskursiya təşkil etmək lazımdır. Şagirdlərlə birlikdə məktəb ətrafı ərazidə və ya yaşadıqları ərazilərdə ağac əkmə aksiyası keçirmək olar. Bununla şagirdlər torpaqların qorunmasına xidmət etmiş olurlar.

8-ci sinif coğrafiya dərsliyində “Ətraf mühiti çirkləndirən mənbələr” mövzusunda çirklənməyə səbəb olan təbii və sosial-iqtisadi amillərdən bəhs olunur [4, s. 165]. Dərslikdə mövzunun çatışmayan cəhəti ondan ibarətdir ki, antropogen təsirlərə az yer verilib, vulkanların püskürməsi, meşə yanğınları və s. təbii amillər çoxluq təşkil edir. Əslində, şagirdlərə təbiətə antropogen təsir haqqında daha çox şey öyrətmək məqsədilə “İnsanların təsərrüfat fəaliyyətinin təbiətə təsiri” adlı layihə hazırlamağı tapşırıq kimi vermək lazımdır.

“Təbii zonalar” mövzusunda coğrafi qurşaqlar, ayrı-ayrı təbii zonalar, onların xüsusiyyətləri, bitki və heyvanat aləmi haqqında məlumat verilmişdir. Həmçinin, mövzunun mətnində Azərbaycanda Kür qırağı ərazilərdə tuğay meşələrinin yayılması barədə məlumat verilmişdir [4, s. 128]. Məlumdur ki, son dövrlərdə tuğay meşələrinin qırılması, yox olması təhlükəsi aktual problemlərdən biridir. Bu haqda şagirdlərlə müzakirə aparıla bilər.

9-cu sinif coğrafiya dərsliyində “Avropanın relyefi” mövzusunda “mətn və şəkil üzərində iş” hissəsində polder anlayışından bəhs olunur. Qeyd edilib ki, polder əvvəllər dəniz dibi ərazilər olub, sonradan insanlar tərəfindən mühəndisi qurğularla quruya çevrilmişdir [5, s. 17]. Əslində izahda bir az yanlışlıq vardır. Dəniz sahili zonalar sulardan mühafizə olub istifadəyə verilir. Xəzərin timsalında müzakirə mövzusuna çevirmək olar.

“Təbiətə ekskursiya” mövzusunda şagirdlərlə birlikdə qoruq və ya milli parklara ekskursiya təşkil etmək üçün plan verilmişdir [5, s. 125]. Ekskursiyalar şagirdlərin dünyagörüşünün formalaşmasında, keçirilən mövzunun mənimsənilmə dərəcəsinin yüksəldilməsində olduqca əhəmiyyətə malikdir. Ekskursiyanın təşkilindən əvvəl müəllim şagirdlərə qoruqlar, milli parklar, yasaqlıqlar, onların fəaliyyəti, orada mühafizə olunan bitki və heyvanlar haqqında məlumat verməlidir. Bu ekskursiyanın məqsədli şəkildə təşkili üçün əhəmiyyət kəsb edir.

“Asiyanın iqlimi” mövzusu şagirdlərə iqlim anlayışının, iqlimə təsir edən amillərin təbiəti

mühafizə məsələlərində rolu haqqında məlumat almağa imkan verir. Mövzunun "mətn üzrə iş" hissəsində 2013-cü ildə Filippində baş verən tayfun haqqında məlumat verilmişdir [5, s. 61]. Müəllim bunu əsas götürərək, tayfun, qasırğa kimi təbii fəlakətlərin təbiətə, insanların həyatına, təsərrüfatına, sağlamlığına vurduğu ziyanlar barədə şagirdlərə məlumat verməlidir.

"Dünya okeanından istifadə" mövzusunda şagirdlər okeanların suyunun şirinləşdirilməsi, qabarma-çəkilmədən enerji alınması, bioloji və xammal ehtiyatlarından istifadə edilməsi, həmçinin okeanların nəqliyyat əhəmiyyəti daşıdığını öyrənirlər [5, s. 98]. Dünyada baş verən əhali artımı təbii ehtiyatların çatışmazlığına, insanların okeanlardan daha çox istifadə etməsinə və bu da mənfi nəticələrə şərait yaradır. Şagirdlərlə birlikdə dünya okeanından təbii ehtiyatlarından, həmçinin nəqliyyat məqsədi ilə istifadə edərkən hansı ekoloji problemlərin yarandığını müzakirə etmək və yaranan problemlərin həlli yollarını araşdırmaq lazımdır.

"Şimal materiklərinin bioehtiyatları" mövzusunda Avrasiya və Şimali Amerika materiklərinin bitki və heyvanat aləmi haqqında məlumat verilib. Mövzuda qeyd olunub ki, bəzi heyvanlar xəz və ov üçün yararlıdır [5, s. 107] Fənn müəllimi bu mövzunu genişləndirərək müzakirə apara bilər. Müasir dövrdə sənayenin bir çox sahəsində istifadə edilməsi üçün bu canlıların məhv olunması problemi həlli vacib olan məsələlərdəndir. Şagirdlərin fikrini bu məsələyə yönləndirmək lazımdır.

Dərsliyin son mövzusu olan "Tüstüsüz sənaye-turizm" mövzusu şagirdlərə ekologiyanı turizm nöqteyi-nəzərdən öyrənməyə imkan verir. [5 səh.199] Belə ki, turizm digər sahələrə nisbətən ekologiyaya az təsir etsə də, turizm sahəsinin inkişafı naminə, bəzən otellərin tikilməsi zamanı yararlı torpaq sahələrini, yaşıllıqları, meşələri məhv etməklə təbiətə ziyan vurulur. Fənn müəllimi mövzunu tədris etməklə şagirdlərə təbiətlə davranış qaydalarını öyrətməlidir.

10-cu sinif coğrafiya dərsliyində "Yer kürəsinin çayları" mövzusunda "Öyrəndiklərinizi tətbiq edin" hissəsində belə bir sual verilib: -Çaylarda daşqınlar hansı aylarda baş verir? [6, s.100] -Əvvəla, 10-cu sinif şagirdləri üçün olduqca bəsit bir sualdır. İkincisi, belə sualın əvəzinə, çay daşqınlarının ölkəmizdə təbiətə, təsərrüfata təsirini və dövlət səviyyəsində görülən tədbirləri müzakirə etmək vacibdir.

"Azərbaycanın qoruqları və yasaqlıqları" mövzusu təbiəti mühafizə məsələlərinin öyrədilməsi baxımından olduqca vacibdir [6, s. 126] Mövzu şagirdlərdə təbiətə sevgini artırır və ətraf aləmi qorumaq hissi aşılayır. Bacarıqlı müəllim şagirdlərdə bu sevgini artırmaq üçün onları təbiəti mühafizə ilə bağlı praktiki işlərə cəlb etməlidir. Bunun üçün şagirdlərlə birlikdə qoruqlara və milli parklara ekskursiya təşkil olunmalıdır.

11-ci sinifdə "Dünyanın içməli su problemi" mövzusunda şagirdlər içməli suyun əhəmiyyəti, dünyada içməli su qıtlığı və s. məsələlər haqqında məlumat əldə edirlər [7, s. 153]. Şagirdlərə "Sudan səmərəli istifadə" adlı layihə vermək olar. Şagirdlər kimya dərsində müəllimin köməyi ilə evlərindən gətirdikləri suyun insan üçün nə dərəcədə faydalı olduğunu yoxlaya bilərlər. Eyni zamanda mağazalarda satılan suların qablaşdırıldığı məkana ekskursiya edib, suyun hansı emal prosesindən keçdiyini öyrənə bilərlər.

"Tullantılar və onlardan istifadə" mövzusunda tullantılar, onların növləri, təbiətə təsiri, tullantılardan təkrar istifadə və s. məlumatlar verilmişdir [7, s. 167]. Məlumdur ki, məişət tullantıları insanların şüursuz davranışları ilə təbiətə atılır və uzun illər məhv olmur. Tullantıların təbiətə və insanlara təsiri haqqında məlumat toplamaq üçün şagirdlərə "Tullantıların sağlamlığa təsiri" adlı layihə hazırlamağı tapşırıq kimi vermək olar.

"Əhalinin həyat səviyyəsi" mövzusunda qeyd olunub ki, əhalinin həyat keyfiyyəti deyəndə maddi dəyərlərlə yanaşı, ekoloji, iqtisadi, mədəni və sosial amillər də nəzərə alınmalıdır [7, s. 89]. BMT-nin təşkil etdiyi İnsan İnkişaf İndeksində vacib göstəricilərdən biri ekoloji amillər

ola bilər. Nəzərə alınmalıdır ki, insanın sağlamlığı onun təhsilindən, işindən və digər göstəricilərdən daha vacibdir. İnsanın sağlamlığına təsir edən amilləri, onların aradan qaldırılması və ya minimuma endirilməsi yolları araşdırılmalıdır. .

Yuxarıda deyilənləri ümumiləşdirərək, belə bir nəticəyə gəlmək olar ki, ümumtəhsil orta məktəbin coğrafiya dərsliklərində təbiəti mühafizə məsələlərinə kifayət qədər yer ayrılmışdır. Lakin təbiəti mühafizə məsələlərinin öyrədilməsi zamanı həm obyektiv, həm də subyektiv cəhətdən verilmiş suallar, şagirdlərin cəlb edildiyi müzakirələr bəzi hallarda yaş və bilik səviyyəsinə uyğun gəlmir. Gələcəkdə dərslik müəllifləri bunları nəzərə almalıdırlar.

**Məqalənin aktuallığı.** Hal-hazırda təbii-ekoloji, qlobal problemlərin getdikcə artması, təbiəti mühafizə məsələlərinin öyrənilməsinin yüksək əhəmiyyət kəsb etməsini nəzərə alsaq, məqaləni aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə orta ümumtəhsil məktəblərinin ayrı-ayrı siniflərinin "Coğrafiya" dərsliklərində müxtəlif mövzuların tədrisinin əsas istiqamətləri müasir dövrümüzün reallıqları ilə əlaqələndirilmiş, müəllimlərə zəruri metodiki tövsiyələr öz əksini tapmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 8 iyun 1999.
2. E.Əlizadə, N.Seyfullayeva, İ.Pakçeyeva, Y.Şabanova. Coğrafiya: Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2013, 160 s.
3. Y.Qəribov, N.Seyfullayeva, Ş.Hümbətova, Y.Şabanova, T.İsmayılova. Coğrafiya: Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2018, 144 s.
4. Z.Eminov, Q.Səmədov, A.Əliyeva. Coğrafiya: Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı: Çaşıoğlu, 2018, 192 s.
5. E.Əlizadə, N.Seyfullayeva, İ.Aktoprak, Y.Şabanova. Coğrafiya: Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2017, 2014 s.
6. Y.Qəribov, O.Alxasov, Ş.Hüseynli, M.Babayeva. Coğrafiya: Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2017, 208 s.
7. N.Seyfullayeva, Z.İmrani, Y.Şabanova. Coğrafiya: Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2018, 208 s.


**Д.М. Касумова**

## Проблемы, с которимы можно столкнуться во время изучения вопросов об охране природы в общеобразовательных eредних школах и пути их решения

## Резюме

В статье особо отмечаются темы о возможности воспитания в учебниках консервативного отношения к природе, относящиеся к вопросам об охране природы по пред-

мету география в общеобразовательных средних школах. По курсу географии были рассмотрены проблемы, с которыми можно столкнуться во время изучения ряда тем по классам, сделаны анализы и показаны пути их решения. В то же время, были даны рекомендации авторам, которые будут писать учебники в будущем.

**D.M. Gasimova**

## Problems that you may encounter while studying issues of natural conservation in the general secondary schools and ways to solve them

### Summary

The article emphasizes topics about the possibility of educating students in a conservative attitude to nature, relating to issues of nature conservation in the subject of geography in secondary schools. At the course of geography, problems that can be encountered while studying a number of topics in classes were examined, analyzes were made and ways to solve them were shown. At the same time, recommendations were given to authors who will write textbooks in the future.

**Redaksiyaya daxil olub:** 28.10.2019